# "Agenda Nexus" nəşri Azərbaycanın regionda artan nüfuzu haqqında analitik material dərc edib

**İsveçin "Agenda Nexus" analitik platforması Azərbaycanın Cənubi Qafqazda əsas dövlət kimi mövqelərinin möhkəmlənməsi mövzusunda məqalə dərc edib.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycan regional gücünü artırır" sərlövhəli məqalədə ölkəmizin 2020-ci ildən indiyədək əldə etdiyi strateji, iqtisadi və hərbi uğurlar ətraflı nəzərdən keçirilir.

Müəlliflər qeyd edirlər ki, Azərbaycan Ermənistanla müharibədə qalib gəldikdən sonra Silahlı Qüvvələrini əhəmiyyətli dərəcədə gücləndirib, sənayesini müasirləşdirib, beynəlxalq əməkdaşlığı inkişaf etdirərək regional siyasətdə sabit və nüfuzlu aktora çevrilib. Türkiyə, İsrail, İtaliya, Böyük Britaniya və Qərb tərəfdaşları ilə strateji ittifaqlara xüsusi diqqət yetirilir ki, bu da ölkənin müdafiə qabiliyyətini gücləndirməyə və texnoloji müstəqillik səviyyəsini yüksəltməyə imkan verib.

Məqalədə vurğulanır ki, Azərbaycan energetika, sənaye və texnoloji sektorların inkişafına fəal sərmayələr yatırır, zirehli texnika, artilleriya və müasir hava hücumundan müdafiə sistemlərinin yerli istehsalını yaradaraq Silahlı Qüvvələrini modernləşdirir. Analitiklərin fikrincə, bu yanaşma Azərbaycana yüksək səviyyədə muxtariyyət verir və onu regional sabitliyin həlledici amilinə çevirir.

Müəlliflər onu da qeyd edirlər ki, Ermənistandakı siyasi qeyri-sabitlik və regionda Rusiyanın təsirinin artması fonunda Azərbaycan nəinki öz maraqlarını müdafiə etmək, həm də Qafqazda təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə vermək iqtidarında olan sabit, müstəqil və Qərbyönümlü aktor kimi formalaşır.

Nəşrin baş redaktoru Oden Aqapur məqaləyə daxil edilmiş şərhində qeyd edir ki, Azərbaycanın təcrübəsi kiçik və orta Avropa ölkələri, o cümlədən İsveç üçün nümunə ola bilər. Bu təcrübə göstərir ki, diplomatik ittifaqlar, hərbi modernləşdirmə, iqtisadiyyat və texnologiyaya uzunmüddətli investisiyaların vəhdəti dövlətə beynəlxalq siyasətdə öz mövqeyini və təsirini əhəmiyyətli dərəcədə gücləndirməyə imkan verir.

Azərbaycan.- 2025.- 9 oktyabr (№217).- S.6.